

**NOVRUZ MƏMMƏDOV,**
Azərbaycan Respublikası Prezidenti
İcra Aparatının şöbə müdiri

## ƏFSANƏLƏRİ REALLIĞA ÇEVİRƏN ŞƏXSİYYƏT

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində fəaliyyəti haqqında yazmaq, onu ümumiləşdirmək, tədqiq və təhlil etmək, qiymətləndirmək və nəticə çıxarmaq, sözün hər mənasında, həddindən artıq çətin və məsuliyyətli vəzifədir. Hətta edilən cəhdin ona adekvat olmayacağına əmin olsaq belə, müstəqil Azərbaycan Respublikasının maraqlarına, onun dövlətçiliyinin möhkəmlənməsinə və inkişafına xidmət edən bu zəngin, uzaqgörən, müdrik, ölçülüb-biçilmiş siyasi kursun hərtərəfli öyrənilməsi həm vacibdir, həm aktualdır, həm də təbiidir. Heç şübhə yoxdur ki, bu mövzuya həsr olunmuş bir məqalə dənizdən damla götürməyə bənzəyir. Amma bu dənizdən hamı götürə bilər, özü də kim nə qədər istəyir, kim nə qədər bacarır.

Heydər Əliyevin xarici siyasət fəaliyyəti bir dövlətçilik məktəbidir, mükəmməl, tarazlaşdırılmış, ilk baxışdan sadə, əslində isə olduqca mürəkkəb, dünyada və regionda gedən prosesləri, tarixi, mədəniyyəti, mövcud reallıqları, bu fəaliyyət sahəsində az-çox əhəmiyyəti, rolu olan hər bir hadisə və faktı nəzərə alan, zəngin təcrübəni, nəzəriyyə və praktikanın harmonik vəhdətini, görkəmli dövlət və siyasi xadimlərdə belə qısqanclıq doğura biləcək uzaqgörənliyi, müdrikliyi və qətiyyəti özündə birləşdirən konsepsiyadır. Bu konsepsiyanın qanun, kateqoriya və prinsiplərinin siyasət, geosiyasət və beynəlxalq münasibətlər üzrə monoqrafiya və dərsliklərdə özünə yer tapacağının və gələcək nəsillər üçün məhək daşına çevriləcəyinin zaman-zaman şahidi olacağıq.

Dahinin bir adı var, dahi. Dahi harada olsa dahidir. Heydər Əliyev sovet rejiminin müxtəlif inkişaf mərhələlərini yalnız ona məxsus olan istedad və məharətlə arxada qoyaraq, mürəkkəb, qəddar, eyni zamanda sərt imtahanlardan keçərək ən yüksək zirvəyə ucaldı. Dahi həmişə dahidir. Bu dahiliyin ictimai-siyasi və tarixi əhəmiyyəti onun xalqa bağlılığı, milli və dövlətçilik maraqlarına xidməti ilə müəyyənləşir.

Artıq bu gün Heydər Əliyevin fəaliyyəti, Azərbaycanın inkişafında, Azərbaycanda dövlətçilik ənənələrinin formalaşmasında onun xidmətləri haqqında yüzlərlə müxtəlif tədqiqatlar yazılmış, nəzəri və praktik ümumiləşdirmələr aparılmışdır. Düşünürük ki, bütün hallarda bu, görülməli işlərin başlanğıcıdır. Heydər Əliyev fəaliyyətinin, ümumiyyətlə, xarici siyasət kursunun ayrılıqda adekvat qiymətini vermək üçün ən azı Heydər Əliyev qədər iş görmək lazımdır.

Zamana ehtiyac olduğu üçün, bununla gələcək nəsillər hələ çox məşğul olacaqlar. Bu həm də tarixi borcdur. İndiki nəslin hər bir nümayəndəsinin, hamımızın borcudur. Cəmiyyətin Heydər Əliyevə qaytaracağı mənəvi, tarixi borcdur.

1993-cü ilin yayında xalqın iradəsi və tələbi, respublikanın bütün siyasi qüvvələrinin dəvəti və çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyevin vəziyyətini təsəvvür etmək üçün ölkədəki prosesləri görmək lazım idi. Adi vətəndaşlar belə qarşıda nə dərəcədə çətin vəzifənin durduğunu dərk edirdilər. Belə bir şəraitdə Heydər Əliyev kimi təcrübəli və müdrik, qeyri-adi idarəçilik məharəti olan bir şəxsiyyətin nə düşündüyünü müəyyənləşdirmək üçün onun yerində olmaq lazım idi. İmperiya dağıldıqdan sonra getdikcə dərinləşən böhran və özbaşınalıq, vətəndaş müharibəsi və ölkənin parçalanma təhlükəsi, kövrək addımlarını atan müstəqilliyimizə edilən sui-qəsdlər, əsrlər boyu başqalarının həsəd apardığı zəngin təbii ehtiyatlarımız, geosiyasi əhəmiyyəti olan Şərq-Qərb, Şimal-Cənub kommunikasiya imkanlarımız, etiraf etmək lazımdır ki, qarşıdakı vəzifələri dəfələrlə, on qat, yüz qat çətinləşdirirdi. Belə bir situasiyada xalq və millət nağıllarda və əfsanələrdə olduğu kimi xilaskar axtarırdı. Bu xilaskar isə Heydər Əliyev idi. Böyükdən kiçiyə, kiçikdən böyüyə, hamının ümidi və pənahı ona yönəlmişdi.

Heydər Əliyevin siyasət aləmindəki fəaliyyətini şahmat terminləri ilə ifadə etməli olsaq, o, siyasət qrossmeysterlərinin ən nəhəngidir. Müstəqillik ərəfəsində respublikaya rəhbərlik etməyə cəhd göstərən Vəzirov və Mütəllibovu bir tərəfdən, miskinlik və qul xisləti, digər tərəfdən isə manqurtluq səciyyələndirirdi. Belələrinin bədnam və rüsvayçı tarixçələri qanunauyğunluqdur. Cəbhə-Müsavat cütlüyünün fəaliyyəti, mahiyyət etibarı ilə, heç nə ilə fərqlənmədi. Əksinə, mövcud problemlərə yeniləri əlavə edildi. Müstəqil dövlət isə uçuruma yuvarlanmaqda davam edirdi. Yeri gəldi-gəlmədi özlərini öyən, məsuliyyət hissindən tam məhrum həm birincilər, həm də ikincilərin faciəsi onda idi ki, onların hadisə və proseslərə münasibəti metafiziki primitivliyi ilə yadda qalırdı. Əşya və predmetlərin yalnız bir tərəfini görənlər üçün onlar haqqında təsəvvür də elə birtərəfli və bəsit olur.

Xarici siyasət – Heydər Əliyev fəaliyyətinin bir istiqamətidir, bir sahəsidir. Amma ən mürəkkəb sahəsidir. Burada səhvlər bağışlanılmır. Burada atılan hər bir addım mühüm əhəmiyyət daşıyır. Onların kiçiyi, böyüyü yoxdur. Hər bir addımın atılması üçün yüzlərlə, minlərlə faktor: - hadisələr, proseslər, münasibətlər, tarixi keçmiş, mövcud durum, yaxın və uzaq perspektivlər nəzərə alınmalıdır. Buna hətta dövlət başçıları arasında belə heç də hamı nail ola bilmir.

Dünyagörüşü qeyri-adi analitik təfəkkür əsasında formalaşmış Heydər Əliyevin xarici siyasət fəaliyyəti kamil bir sistemdir. Bu sistem mürəkkəb struktura malik olan operativ mexanizmlərdən ibarətdir. Onların hər biri obyektiv qanunauyğunluqlar əsasında fəaliyyət göstərir və bir-biri ilə üzvi şəkildə sıx bağlıdır. Düşünürəm ki, bu günün özündə dünyanın müxtəlif ən inkişaf etmiş ölkələrində aparıcı alimlərin gecə-gündüz yorulmadan çalışaraq icad etmək istədikləri ən mükəmməl elektron hesablama maşınlarının ideal modeli Heydər Əliyev beyninə yaxın bir modeldir. Amma buna nail olmaq, həm nəzəri, həm də praktik baxımdan mümkündürmü? Yəqin ki, yox. Bu baxımdan Heydər Əliyev fenomendir. Belə şəxsiyyətlər yüz ildən, iki yüz ildən bir dünyaya gəlir.



Heydər Əliyevin siyasi dühası, analitik təfəkkürü və uzaqgörənliyi bir tərəfdən, eyni zamanda müxtəlif istiqamətləri, müxtəlif sahələri əhatə edərək ümumiləşdirməyə, qlobal münasibətlər sistemini, onların inkişaf xarakterini və istiqamətlərini vəhdətdə görməyə və qiymətləndirməyə imkan verir, digər tərəfdən isə bu mürəkkəb münasibətlər sistemində öz ölkəsi və xalqı üçün ən vacib məqamları seçib-ayıraraq onları milli və dövlətçilik maraqlarını təmin edən mühüm ideya və layihələrə çevirməyi, sonra isə qlobal və regional proseslərin mərkəzinə çıxarmağı bacarır. Məhz bu xüsusiyyəti Heydər Əliyevi dövlət başçısı, siyasi xadim kimi başqalarından fərqləndirir.

Heydər Əliyev dühasını səciyyələndirən cəhətlər olduqca müxtəlif və qeyri-adidir. Onların hamısını müəyyənləşdirmək, təsnif etmək, sistemləşdirmək və şərh etmək siyasət və diplomatiya elmlərinin vəzifəsidir. Heydər Əliyevin siyasi intuisiyasının, uzaqgörənliyinin elmi-metodoloji əsaslarının izahını vermək çətin vəzifədir. Lakin Heydər Əliyevin fəaliyyətində realizm və praqmatizm həmişə mühüm rol oynayır. Böyük realist və praqmatik olaraq o, qarşısına qoyduğu vəzifəsinin, hətta ən çətin və ən mürəkkəb vəzifə olsa belə, öhdəsindən həmişə yüksək səviyyədə gəlir. Bunun əsas səbəbi odur ki, çoxlarının siyasətdə, beynəlxalq münasibətlərdə xülya, əfsanə, ən yaxşı halda, rasional fərziyyə hesab etdiyi məsələləri Heydər Əliyev fenomeni heç kimə xas olmayan, yalnız özünəməxsus ölçü və kateqoriyalarla təhlil edir, nəticə çıxarır. Lakin sadəcə "təhlil edir, nəticə çıxarır demək, şübhəsiz, çox primitiv yanaşma üsuludur. Çünki bu zaman onun beynində gedən proseslərin elmi izahını şərh etmək mümkün deyil. Biz ancaq nəticələri görürük.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı müharibə, siyasi proseslər, düşdüyü çıxılmaz vəziyyət, daxildəki siyasi özbaşınalıq və xaos, iqtisadi böhran, tarixi qonşularımız İran İslam Respublikası və Rusiya Federasiyası ilə səriştəsizlikdən gərginləşmiş münasibətlər, ölkənin, gənc dövlətin taleyini və gələcəyini ciddi düşünən hər bir şəxsin pessimizmə qapılmasına səbəb olurdu. O dövrdə yaşadığımız təhlükəli proseslərin ciddiliyi hər bir vətəndaşı düşündürürdü. Sadə insanlar, bütün xalq fəlakətə sürükləndiyini duyurdu, fəlakətin qaçılmaz olduğunu hiss edirdi. Elə Heydər Əliyevin hakimiyyətə qayıtmasını zəruriləşdirən mühiti də xalqın bu duyumu formalaşdırdı. Məhz bu duyum xalqın iradəsini ortaya qoydu. Həmin iradənin qətiliyinə və Heydər Əliyevin qayıdışına alternativin olmadığına əmin olan Cəbhə-Müsavat rəhbərliyi onu dəvət etməyə məcbur oldu.

Heydər Əliyevi isə bu zaman hakimiyyət yox, xalqın durumu, dövlət və dövlətçiliklə bağlı taleyüklü məsələlər düşündürürdü. Ötən qısa müddət ərzində hansı səhvlər buraxılmışdı? Bu səhvləri törədən obyektiv səbəblər hansılardır? Onları aradan qaldırmaq üçün hansı addımlar atılmalıdır? Xalqı və dövləti bu vəziyyətdən necə çıxarmalı? Bu xarakterli düşüncələrin, sualların sayı-hesabı yox idi.

Azərbaycan xalqı ağıllı, cəsur, mərd, qonaqpərvər, zəhmətkeş, istedadlı xalqdır. O, min illərlə ölçülən tariximiz boyu dəfələrlə müstəqil dövlətini yaratsa da, onu yaşatmaq mümkün olmamışdır. Müxtəlif səbəblər üzündən xalqımızın qəlbində əsrlər boyu bəslədiyi ümdə arzu puç olmuşdur. Son dəfə SSRİ dağıldıqdan sonra da müstəqilliyimizə təhlükə olan bütün səbəblər qalırdı. Lakin xalqın əzminə və iradəsinə söykənərək bu çətinliklərin aradan qaldırılmasına çalışmaq əvəzinə, Cəbhə-Müsavat rəhbərləri heç bir məsuliyyət hiss etmədən və kor-koranə yenilərini yaratmaqla məşğul idilər. Siyasətdə radikallıq və populizm gec-tez həm siyasətçinin özünü, həm də onun rəhbərlik etdiyi qurumu və ölkəni uçuruma aparır. Tarix bunu dəfələrlə sübut etmişdir. Cəbhə-Müsavat rəhbərləri, eləcə də Vəzirov və Mütəllibov kimilər bunu bir daha sübut etdilər. Prosesin tez getməsinə səbəb isə bu üzdəniraq rəhbərlərin dövləti bağ, bostan, müəssisə hesab etmələri, yəni dövlətin mahiyyətini başa düşməmələri və eyni zamanda xalqdan bir alət kimi istifadə etmək niyyətləri idi. (Təəssüflər olsun ki, elə bu gün də onların beyinlərinin təkcə bir qırışı işləyir). Bunun nəticəsi idi ki, onlar rüsvayçılıqla siyasət səhnəsini tərk edəndən sonra Heydər Əliyevin qarşısında minimum aşağıdakı fundamental problemləri həll etmək vəzifəsi dururdu:

- daxildə separatçılıq və dövlətçiliyə sui-qəsd meyllərinin qarşısını almaq və ictimai-siyasi sabitliyi təmin etmək;
- getdikcə dərinləşməkdə olan iqtisadi böhranı dayandırmaq;
- Cəbhə-Müsavat rəhbərlərinin məsuliyyətsiz, kor-koranə və populist bəyanat və çağırışları nəticəsində qonşu İran İslam Respublikası və Rusiya Federasiyası ilə gənc Azərbaycan Respublikası arasında korlanmış, gərgin münasibətləri normal səviyyəyə qaldırmaq;
- Ermənistanın təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan ərazilərində gedən müharibəni dayandırmaq;
- bütün dövlətlərlə əlaqələr quraraq müstəqil Azərbaycan Respublikasının siyasi, iqtisadi, mədəni, hüquqi və s. sahələrdə inkişafını təmin edəcək şərait yaratmaq;
- xalqın itirilmiş inamını özünə qaytarmaq.

Yuxarıda qeyd etdiyimiz problemlər Azərbaycan üçün səriştəsizlik və xəyanət nəticəsində yaranmışdı. Onların aradan qaldırılması üçün Heydər Əliyev dühası lazım idi. Məhz onun yorulmaz fəaliyyəti, müdrik daxili və xarici siyasət kursu sayəsində yaxın tariximizdə qarşılaşdığımız fundamental problemlər artıq arxada qalmışdır. Hətta gənc nəsil də bu mərhələlərin şahidi olmuşdur. Amma Azərbaycanın qarşısında duran taleyüklü məsələləri həll edərkən Heydər Əliyev eyni zamanda xalqın, millətin və dövlətin gələcəyi haqqında düşünürdü. Heydər Əliyevi başqalarından fərqləndirən də budur. O, eyni zamanda çoxgedişli addımlar atmağı bacarır. Qeyd olunan problemlərin hər birinin həllinə müxtəlif zaman kəsiyinin lazım gəldiyini nəzərə almaq lazımdır. 1993-cü ildən başlayan bu proses sonrakı illərdə, İran İslam Respublikası və Rusiya Federasiyası ilə Azərbaycan arasında münasibətlərin normal səviyyəyə qaldırılmasını da nəzərə alsaq, ötən əsrin



sonunadək davam etdi. Lakin bu cür taleyüklü məsələlərin həlli ilə paralel atılan addımları nəzərdən keçirsək, Heydər Əliyevin dövlətçilik konsepsiyası gözlərimiz önündə canlanar. Belə ki, 1994-cü ildə atəşkəs rejimi haqqında razılaşmaya nail olan Heydər Əliyev həmin ilin sentyabrında "Əsrin müqaviləsi" ni imzalayır. Dünyanın bir sıra aparıcı şirkətlərinin iştirak etdiyi bu layihəni o zaman çoxları utopiya adlandırsalar da, Heydər Əliyev gələcəyə baxırdı, gələcəyi görürdü və bu layihənin Azərbaycan Respublikası, eləcə də regional və beynəlxalq əməkdaşlıq üçün nə dərəcədə əhəmiyyətli olduğuna tam əmin idi. O, 1994-cü ildə XXI əsri görə bilirdi. Həmin dövrdə Azərbaycan və dünya mətbuatında "Əsrin müqaviləsi"si ilə bağlı gedən mütəxəssis, ekspert fikirlərini, müxtəlif bəyanatları nəzərdən keçirdikdə, Heydər Əliyevin böyüklüyünün bir daha şahidi olursan. Təkcə "Əsrin müqaviləsi"si Heydər Əliyevi əbədiləşdirməyə kifayətdir. Amma Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqilliyimiz dövründə bu layihəyə bərabər tutulacaq addımları bir deyil, iki deyil. Bu addımlar həyatını ölkəsinin inkişafına, dirçəlişinə, çiçəklənməsinə, xalqının rifahına, xoşbəxtliyinə, təhlükəsizliyinə həsr etmiş bir şəxsin – Heydər Əliyevin taleyidir, onun həyat verdiyi abidələrdir.

Həyatda olduğu kimi, siyasətdə də bəzən elə situasiyalar yaranır ki, dərhal qərar çıxarmaq lazım gəlir. Lakin dərhal qəbul edilən bu qərar düzgün, məhz ölkənin milli və dövlətçilik maraqlarına cavab verən qərar olmalıdır. Dövlət başçısının müdrikliyi məhz belə anlarda özünü daha parlaq nümayiş etdirir. Dərhal qəbul edilən qərarların düzgünlüyünü təsdiq etmək üçün ən azı zamana, hadisə və proseslərin evolyusiyasını izləməyə ehtiyac yaranır. Heydər Əliyev elə nadir dövlət başçılarındandır ki, onun ekstremal situasiyalarda qəbul etdiyi qərarların zərgər dəqiqliyini hər dəfə zaman təsdiq edir. Dediklərimizə istənilən qədər nümunələr gətirmək olar. Ən parlaq nümunə isə 2001-ci ilin sentyabr ayının 11-də ABŞ-da törədilən terror aktları ilə bağlı Azərbaycanın dövlət başçısının atdığı addımdır. Hadisə baş verən günün sabahı, səhər-səhər Prezident H.Əliyev ABŞ Səfirini iqamətgahına dəvət edərək dəhşətli faciəyə münasibətini bildirdi, ABŞ Prezidentinə, hökumətinə, həlak olanların yaxınlarına dərin hüznlə başsağlığı verdi, terror aktlarını qətiyyətlə pislədi, ABŞ-ın yaratdığı antiterror koalisiyasına qoşulduğunu və bu istiqamətdə Azərbaycanın bütün imkanları ilə iştirak edəcəyini bəyan etdi. Bu elə bir zaman idi ki, bir sıra dövlətlərin rəhbərləri günlərlə mövqelərini dəqiqləşdirməkdə çətinlik çəkir və başqalarını gözləyirdilər. Lakin təxminən 10 gündən artıq vaxt keçəndən sonra hadisələrə münasibət bildirən Ermənistan rəhbərliyi həmişə olduğu kimi, sonralar, riyakarlıqla güya ilk günlərdən antiterror koalisiyasına qoşulduğunu sübut etməyə və tarixi təhrif etməyə çalışdı. Həqiqəti öyrənmək üçün isə 2001-ci ilin sentyabr ayının 11-dən sonra yerli və dünya mətbuatını nəzərdən keçirmək kifayətdir.

Qeyd edək ki, Heydər Əliyevin həyatından bu cür nümunələr gətirməklə onların hamısını sadalamaq mümkün deyil. Lakin müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılacaq Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri haqqında danışmamaq olmur. İki əsrin qovuşuğunda dünyanın nəhəng layihələrin-

dən olan bu boru kəməri Heydər Əliyevin yaratdığı ən böyük abidələrdən biridir. Azərbaycan xalqı və dövləti üçün ucaldılan bu abidə, çiçəklənmə amili olaraq, beynəlxalq əməkdaşlıq simvolu kimi region dövlətləri üçün də mühüm əhəmiyyət daşıyacaqdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin ideyası ortaya çıxanda, bəziləri dodaq büzürdü, bu layihəni qeyri-real, xülya və əfsanə adlandırırdılar. Əslində, çoxları üçün bu layihə, doğrudan da, fantastik ideya idi, amma bu fantastik ideyanın müəllifi, atası isə Heydər Əliyev idi. Onun üçün isə fantastika, əfsanə yoxdur. O əfsanələri reallığa çevirən siyasətçi və rəhbərdir. Müəllifi Heydər Əliyev olan bu layihənin tarixini üç hadisə ilə də qeyd etmək olar. 1999-cu ildə Türkiyədə Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri ABŞ Prezidenti U.Klintonun iştirakı ilə bəyanat verirlər. 2002-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 10 illiyi münasibəti ilə keçirilən Sammitdə iştirak etməyə gəlmiş Heydər Əliyevi bir konfransa dəvət edirlər. Konfrans «Üç dənizin əfsanəsi» adlanır. 2003-cü ilin fevralında isə Vaşinqtonda təşkil olunmuş «Şərq-Qərb dəhlizi – günün reallığıdır» adlı konfrans da Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə həsr olunmuşdu. Əlbəttə, bütün bunlar qısa, sadə bir tarixdir. Amma bu tarixin arxasında nələrin durduğunu yalnız Prezident Heydər Əliyev bilir. Bircə fikri vurğulamaq yerinə düşər: böyük layihənin böyük də problemləri olur. Elə bütün mənalarda. Amma böyük və möhtəşəm layihənin müəllifi və gerçəkləşdirəni də böyük və möhtəşəm olur.

Daha bir prosesi də mütləq qeyd etmək ona görə lazımdır ki, bu Heydər Əliyev dühasının dinamikasını nümayiş etdirir. Müstəqilliyini yenicə qazanmış Azərbaycanın qarşısında duran ən mühüm və çətin vəzifələrdən biri də Xəzər və onun Azərbaycan sektorunda olan neft yataqlarının işlənməsi və istismarı məsələsinin tezliklə həlli idi. SSRİ dağılandan sonra Xəzər bölgəsində, həqiqətən də, unikal bir vəziyyət yaranmışdı. Xəzər beş dövlətin əhatəsində idi və belə bir hala dünya praktikasında əvvəllər təsadüf edilməmişdi. Heydər Əliyevin dövlətçilik təcrübəsi, uzaqgörənliyi bu çətin situasiyadan çıxış yolu göstərdi. Və Heydər Əliyevin Xəzərin statusu ilə bağlı təklif etdiyi sektoral prinsip, bu unikal vəziyyətdə, ədalətli, yeganə düzgün və hər bir Xəzəryanı dövlətin maraqlarını təmin edən konsepsiya oldu. Yeni açılan yollar hamar olmur. Bu yol da hamar deyil. Amma ötən illər ərzində əldə edilmiş nailiyyətlər, Xəzərin statusu ilə bağlı gedən proseslər və aparılan danışıqlar bir daha göstərir ki, biz doğru yoldayıq və bu məsələ də öz həllini tapacaqdır.

Heydər Əliyev bütün həyatı boyu bir prinsipə sadiq olmuşdur: nəyin bahasına olursa olsun, bütün imkanlardan istifadə edərək, xalqına və millətinə maksimum xidmət etmək. SSRİ-nin tərkibində olduğumuz dövrdə də belə olmuşdur. Bu gün də belədir. Heydər Əliyevin yeganə amalı Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin inkişafını və möhkəmləndirilməsini, xalqımızın rifahını, təhlükəsizliyini və çiçəklənməsini təmin edə biləcək hakimiyyət formulu yaratmaq və onu etibarlı əllərə təhvil verməkdir.